# QARABAĞIN RELİKT VƏ QIRMIZI SİYAHIYA DÜŞƏN ODUNCAQLI BİTKİLƏRİ

**Sadıq Qarayev, Aynur Seyfullayeva, Mənzər Seyidəliyeva, Nərgiz Əliyeva**

*Mərkəzi Nəbatat Bağı, qarayev.1974@mail.ru*

Aparılan təhlillərə görə, 1975-ci ildə Azərbaycan florasında 24, 1984-cü ildə 28, 1989-cu ildə isə 45 növ nadir, nəsli kəsilməkdə olan ağac və kol bitkiləri müəyyən edilmişdir. Hazırda bu rəqəm 200-ə yaxındır.

Qarabağ Azərbaycanın Kiçik Qafqaz bataniki-coğrafi rayonunun mərkəzi və cənubi hissələrini əhatə edir və son tədqiqatlara görə ərazidə 2.000-dən çox ali bitki növü müəyyən edilmişdir.

Qarabağ florası nadir, endem, relikt ağac və kol bitki növləri ilə zəngindir. 2013-cü ildə nəşr edilmiş Azərbaycan Respublikasının "Qırmızı kitab"ında Qarabağ dendroflorasında yayılan 14 fəsilə və 16 cinsə aid 16 növ verilmişdir. Bunlardan 2 növ Poltav floarsı (*Platanus orientalis* L., *Punica granatum* L.), 3 növ isə Tuqay floarsına (*Taxus baccata* L., Castanea sativa Mill., Zelkova carpinifolia (Pall) C.Koch.) aid reliktlərdir.

T.S.Məmmədov, E.O.İskəndər və T.H.Talıbovun müəllifliklıəri ilə 2016-cı ildə nəşr edilmiş "Azərbaycanın nadir ağac və kol bitkiləri" kitabında Qarabağ dendroflorasında olan 18 fəsilə və 25 cinsə aid 40 növ ağac və kol bitkiləri təsvir olunmuşdur. Onlardan 2 növ (*Ficus hyrcana* A.Grossh. – Hirkan əncıri, *Rosa azerbaidshanica* Novoposkr et Rzazade. – Azərbaycan itburnusu) Azərbaycanın endem bitkiləridir. 2 növ (*Ficus hyrcana* A.Grossh. – Hirkan əncıri., *Platanus orientalis* L. – Şərq çinarı) III dövrün əvvəllərində, tropik iqlimdə yayılmış həmişəyaşıl Poltav florasının, 7 növ (*Pinus kociana* Klotzsh ex. K.Koch. – Kox şamı, *İlex hyrcana* Pojark. – Hirkan pirkalı, *Corylus colurna* L. Ayıfındığı, *Castanea sativa* Hill. – Adi şabalıd, *Quercus iberica* Stevan ex M.Bieb. – Gürcü palıdı, *Tilia begoniifolia* Stev. – Qafqaz cökəsi., *Zelkova carpinifolia (Pall.) K.Koch.* – Vələsyapaq azat (Nil) ağacı) Paleogenin Oliqosen mərhələsnin ortalarından başlayaraq, mülayim mezotermik iqlimdə yayılmış yarpağını tökən Tuqay florasının, 1 növ (*Quercus araxina* (Trautv.) Grossh. – Araz palıdı) isə III dövrün sonlarından başlayan kserotermik iqlimin relikt bitkiləridir.

İşğaldan azad edilmiş ərazilərin florası müasir metodlarla yenidən tədqiq edilməlidir. Təbii tarazılığı pozulmuş ekosistemlərin bərpası yolları öyrənilməlidir.